# Kubanıçbek ÖMÜRALIYEV:

# "Ümidvaram ki, Türk Dünyası Mədəniyyət Forumu birliyimizi gücləndirəcək"

"Sevindirici haldır ki, Birinci Türk Dünyası Mədəniyyət Forumu bizim üçün doğma olan qədim Şuşa şəhərində keçirilir".

AZƏRTAC xəbər verir ki, bu barədə qədim Şuşa şəhərində I Türk Dünyası Mədəniyyət Forumunda iştirak edən Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev bildirib.



Baş katib deyib: "Ümidvaram ki, bu forum ənənəvi olacaq və türk dünyasının birliyini, xalqlarımızın mədəniyyəti, ədəbiyyatı və tarixi üzərindən qardaşlığımızı möhkəmləndirəcək".

Xatırladaq ki, Şuşa şəhərində oktyabrın 13-14-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumu keçirilir.

Azərbaycan.- 2023.-14 oktyabr.- S.11.